## HAQQINDA KİTABLARDA

### 2023

**Əhmədov, Teymur Əkbər oğlu.** Seçilmiş əsərləri [Mətn] : beş cilddə / T. Əhmədov ; red. N. Seyidəliyev ; naşir Hacı İ. Allahverdi ; buraxıl. məsul S. Ramizoğlu ; ön söz. müəl. E. Cabbarov.- Bakı: [AVE Print], 2023.- C. 2: Fikir karvanı: Ədəbi portret, xatirə.- 646, [1] s., [1] v.

"Seçilmiş əsərlər"in ikinci cildində Abbasqulu ağa Bakıxanov (Qüdsi), İsmayıl bəy Qutqaşınlı, Mirzə Şəfi Vazeh, Mirzə Fətəli Axundov, Mirzə Ələkbər Sabir, həmçinin Qılman İlkin, Zəlimxan Yaqub, ***Mir Cəlal*** və neçə-neçə görkəmli söz xiridarlarımızın həyat yolu, yaradıcılığı görkəmli alim tərəfindən bir daha süzgəcdən keçirilib, təhlil olunub. Kitab "Ədəbi-bədii fikir tarixindən" və "Cənubi Azərbaycan ədəbiyyatı" adlı iki bölmədən ibarətdir.

**Soltanqızı, Pərixanım. (Hüseynova)** Azərbaycan və dünya ədəbiyyatının tanınmış tədqiqatçıları [Mətn] : (XX-XXI əsrlər) / P. Soltanqızı (Hüseynova) ; red.: R. Qafarlı, M. Səlahəddin (Nəcəfova), X. Əliyeva.- Bakı: Müəllim, 2023.- H. 1.- 299, [1] s.

Kitaba Azərbaycan və dünya ədəbiyyatını araşdıran azərbaycanlı akademiklər, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvləri, filologiya elmləri doktorları, professorlar, fəlsəfə doktorlarının (qismən) elmi-pedaqoji fəaliyyətləri, elmi-tədqiqat sahələri haqqında məlumatlar daxildir.

### 2021

**Kazımov, Qəzənfər Şirin oğlu.** Ədəbiyyatda komizm [Mətn] / Q. Kazımov ; elmi red.: T. İ. Hacıyev, Y. M. Seyidov.- Bakı: Elm və təhsil, 2021.- 478, [2] s.

Müəllifin bu kitabında T. Şahbazi (Simürğ), B. Talıblı, Qantəmir, ***Mir Cəlal*** və S. Rəhmanın 20-30-cu illər nəsr dili materialları əsasında Azərbaycan dilinin gülüş yaratma imkanları nəzərdən keçirilmiş, bu cəhətdən ilk növbədə sözün komik potensialı öyrənilmişdir. Əsərdə xüsusi adlar və ləqəblərin, şivə leksikasının, vulqar söz və ifadələrin, alınma və arxaik sözlərin, neologizmlərin, trop növlərinin, atalar sözləri və məsəllərin, aforizmlər və şablonların komik təbiəti, komizm yaratma imkanları şərh edilmişdir.

### 2020

**İbrahimli, Sahib. (Axundov Sahib İbrahim oğlu)** Seçilmiş əsərləri [Mətn] / S. İbrahimli ; red. L. Quliyeva ; [dizayner K. İbrahimov].- C.6: Turançılıq işığında.- Bakı: Elm və təhsil, 2020.- 751, [1] s.

Şair-dramaturq, filologiya üzrə fəlsəfə doktoru Sahib İbrahimlinin bu kitabına " Qasım bəy Zakirin poetikası", "Əhməd Cavadın həyat və yaradıcılığının Gəncə dövrü", ***görkəmli yazıçı, ədəbiyyatşünas alim Mir Cəlalın elmi fəaliyyətinə həsr olunmuş "Elm fədaisi"*** adlı monoqrafiyaları, habelə bir neçə elmi məqaləsi və iki xatirəsi daxil edilmişdir.

### 2019

**Ədəbiyyat 11** [Mətn] : ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik / İ. Ə. Həbibbəyli, S. H. Əliyev, B. A. Həsənov, A. C. Mustafayeva ; [dil red. Y. İsmayılova ; dizayner T. Məlikov].- Bakı: Bakı Nəşr, 2018.- 207 [1] s.

Dərs vəsaitində çoxəsrlik ədəbiyyatımızın son iki yüz ildə yaranmış nümunələri verilmişdir. Vəsaitə nəzəri məlumatlarla yanaşı, oxunması nəzərdə tutulan bədii əsərlər də daxil edilmişdir. Kitabda Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid, Əhməd Cavad, ***Mir Cəlal*** və digər yazıçı və şairlərin həyat və yaradacılığı verilmişdir.

**Namazova, Səba Azad qızı.** XX əsr Azərbaycan ədəbiyyatı məsələləri [Mətn] : dərs vəsaiti : [elmi-nəzəri məqalələr] / S. Namazova ; elmi red. A. Məmmədli ; Azərb. Resp. Təhsil Nazirliyi, Gəncə Dövlət Un-ti.- Bakı: Elm və təhsil, 2019.- 244, [4] s.

Dərs vəsaitində yer alan araşdırmalarda çoxəsrlik ədəbiyyatımızın zəngin ənənələri üzərində yaranıb inkişaf edən Azərbaycan şeirinin poetik mənzərəsinə ümumilikdə nəzər salınmış, realist və romantik ruhlu sənətkarların qələmə aldıqları çoxsaylı yaradıcılıq nümunələri tədqiqata yönəlmişdir. Kitabda ""Poçt qutusu" bölməsi "Molla Nəsrəddin" jurnalının səhifələrində satirik janr kimi", "Nigar Rəfibəylinin poetik dünyası", "Bəxtiyar Vahabzadə yaradıcılığında vətənpərvərlik", "Gəncənin mədəni-mənəvi mühiti "Molla Nəsrəddin"in ədəbi-bədii nümunələrində", "Əhməd bəy Ağaoğlu imzası", "Ana dilinin varlığının qorunması məsələsinə "Molla Nəsrəddin" jurnalının münasibəti", "Azərbaycan mühacirət ədəbiyyatşünaslığı Nikpur Cabbarlının tədqiqatlarında", "Mirzə Ələkbər Sabirin poetik novatorluğu və satirik şeir məktəbinin davamçıları", "Azərbaycan milli ədəbi düşüncəsinin mənəvi ovqatı", ***"Mir Cəlal yaradıcılığında satirik psixologizm"***, "Azərbaycan Xalq Cümhuriyyəti dövründə ictimai-siyasi və ədəbi-bədii düşüncənin formalaşmasında mətbuatın rolu" və s. adlı mövzular verilmişdir.

**2017**

**Əlişanoğlu, Tehran. (Mustafayev Tehran Əlişan oğlu)** Milli nəsrdə Azərbaycan obrazı [Mətn] : Tarix və müasirlik kontekstində / T. Əlişanoğlu ; elmi red. İ. Həbibbəyli ; AMEA, Nizami ad. Ədəbiyyat İn-tu.- Bakı: Elm və təhsil, 2017.- 611, [5] s.

Kitabda müəllifin Azərbaycan nəsrinin son bir əsrinə dair araşdırmaları, məqalələri, tənqid yazıları toplanmışdır.

**Pənah, Gülxani. (Şükürova Gülxani Vaqif qızı)** Seçilmiş əsərləri [Mətn] / G. Pənah ; çapa məsul Ç. Abdullayev ; [red. Y. İsmayılova ; rəssam S. Manaflı ; dizayn Ş. Əliyeva].- Bakı: [SkyE], 2017.- C.8: [Mir Cəlalın elmi-nəzəri görüşləri : monoqrafiya].- 486 s.

Monoqrafiyada həm klassik, həm də XIX-XX əsr ədəbi prosesi, bu dövrün sənətkarları haqqında alimin apardığı tədqiqat işləri araşdırılır, tədqiq edilir.

**2016**

**Cəfərov, Nizami Qulu oğlu.** Keçən günlərin dastanı [Mətn] / N. Q. Cəfərov; red. S. Şəmil ; ön söz. müəl. N. Həsənzadə ; naşir M. Xan; rəssam V. Səftərov ; dizayn və qrafika T. Fərzi.- [Bakı]: Xan, [2016].- 210, [6] s. ("Xatirə Ədəbiyyatı" silsiləsi K. 27).

AMEA-nın Müxbir üzvü Nizami Cəfərovun yazdığı "Keçən günlərin tərcümeyi-halı" xatirələr əsərində həm orta məktəbdə, həm də ali məktəbdə, dərs aldığı böyük dilçi alimlərdən eşitdikləri və gördükləri hadisələr qələmə alınmışdır. Belə ki, Muxtar Hüseynzadə, Əlövsət Abdullayev, Nəsir Məmmədov, Abdulla Vəliyev, Musa Adilov, Fərhad Zeynalov, Samət Əlizadə, Ağamusa Axundov, Tofiq Hacıyev, Aydın Məmmədov, Kamil Vəliyev, Firidun Cəlilov kimi dəyərli dilçilərimizlə yanaşı ***Mir Cəlal***, İsmayıl Şıxlı, Yusif Səmədoğlu, Nəriman Həsənzadə kimi

yazıçı və şairlərimizin haqqında da olan şirin və baməzə xatirələr mədəniyyətimiz tarixindən çox dəyərli faktlardır.

**Xəlilov, Buludxan Əziz oğlu.** Zamanın sınağından keçənlər... [Mətn] / B. Xəlilov ; red. F. Rzayev.- Bakı: [Adiloğlu], 2016.- 251, [1] s.

Kitabda Qulu Xəlilov, Mirzə İbrahimov, ***Mir Cəlal***, Mehdi Hüseynlə bağlı hadisələr verilir. Bundan başqa, Cəlil Məmmədquluzadə üslubundan qidalanan publisistik məqalələr, o cümlədən təhsilin inkişafı üzrə Dövlət Strategiyasının əsas hədəfləri təhlil olunur.

**Muradov, Cümşüd.** Unudulmaz xatirələr [Mətn] / C. Muradov ; red. Ş. Abdullayeva, L. Abdullayeva.- Bakı: Adiloğlu, 2016.- 279, [1] s.

Azərbaycan Respublikası Ağsaqqallar Şurasının və Respublika Ziyalılar Cəmiyyətinin üzvü, "Azərbaycan Bayrağı" fəxri Media Mükafatı laureatı, "Vətən" fəxri Media Mükafatı laureatı, qocaman şəqşünas alim Cümşüd Muradovun bu kitabında müəllifin ömür yolundan - uşaqlıq, gənclik, tələbəlik illərindən, İran və Əfqanıstana səfərlərindən, elmi yaradıcılığından söz açılır. Həmçinin kitabda Bakının Qala kəndinin tarixi, adət-ənənələri, müəllifin görkəmli yazıçı, ədəbiyyatşünas, ***professor Mir Cəlal Paşayevlə***, eləcə də Azərbaycanın digər görkəmli şəxsiyyətləri ilə bağlı xatirələri yer almışdır.

**Səlimxanlı, Dəyanət Fətulla oğlu.** İlahi nur [Mətn] / D. Səlimxanlı ; elmi red. Ə. Xəlili ; dini red. M. Tağıyev ; red.: L. Hüseynova, C. Abdinov, V. Əliyev ; məsləhətçi.: Ş. A. Paşazadə, V. Məmmədəliyev ; dizayner R. Quliyev.- Bakı: Şərq-Qərb, 2016.- 213, [2] s.

Bu kitab Müqəddəs nəslin min illik tarixinə, bu gününə və bu nəslin layiqli davamçılarına, böyük şəxsiyyət görkəmli alim, elimizin ağsaqqalı, Akademik Arif Mir Cəlal oğlu Paşayev və nəslin şərəfli ömür yoluna həsr olunur. "İlahi nur" poemasında Allahın Yer üzünü Nuri Muhəmməd eşqinə yaratması və Muhəmməd (s.ə.s)-ın və onun əhli-beyti, bu əhli-beytdən olan İmam övladlarının dördüncüsü olan İmam Zeynalabdin, onun nəsil şəcərəsindən olan ***Mir Cəlal***, Mir Xəlil, Mir Vəli, Mir Cəlil, Mir Ağa, Mir Əbülfəz və onlardan olan nəslin İslami həyatının dəyərlərindən və fəzilətindən bəhs olunur.

**2015**

**Əhmədov, Teymur Əkbər oğlu.** Seçilmiş əsərləri [Mətn] : beş cilddə / T. Ə. Əhmədov ; red. N. Seyidəliyev ; buraxılşa məsul S. Ramizoğlu ; naşir Hacı İ. Allahverdi ; ön sözün müəllifi E. Cabbarov.- Bakı: Nurlar, 2015.- C. 2: Fikir karvanı : ədəbi portret, xatirə.- 646, [1] s., [1] v.

"Seçilmiş əsərlər"in ikinci cildində Abbasqulu ağa Bakıxanov, İsmayıl bəy Qutqaşınlı, Mirzə Şəfi Vazeh, Mirzə Ələkbər Sabir, həmçinin Qılman İlkin, Zəlimxan Yaqub, ***Mir Cəlal*** və neçə-neçə görkəmli söz xiridarlarımızın həyat yolu, yaradıcılığı görkəmli alim tərəfindən bir daha süzgəcdən keçirilib, təhlil olunub. Kitab "Ədəbi-bədii fikir tarixindən" və "Cənubi Azərbaycan ədəbiyyatı" adlı iki başlıqdan ibarətdir.

**2013**

**Canəliyev, Bafəddin Ziyad oğlu.** Yaddaşlarda yaşayanlar [Mətn] / B. Canəliyev ; red. Q. İlqar [ön söz əvəzi].- Bakı: Nərgiz, 2013.- 267, [1] s., [16] v.

Kitabda tanınmış şəxsiyyətlər haqqında məqalələr, xatirələr öz əksini tapıb.

**Əliyev, Kamran İmran oğlu.** Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar [Mətn] / K. Əliyev ; red. A. Əmrahoğlu ; AMEA, Folklor İnstitutu.- Bakı: [Elm və təhsil], 2013.- 273, [1] s.

Kitabda müəllifin ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar haqqında məqalələri toplanmışdır.

**2012**

**Cəfərxan, Firdovsi. (Kazımov Firdovsi Cəfərxan oğlu)** İnsanlığın keçdiyi yol [Mətn] / F. Cəfərxan ; red., ön söz. müəll. H. Sadıqov.- Bakı: [Sumqayıt]: Bilik, 2012.- 351, [1] s.

Kitab müəllifin son illərdə qələmə aldığı seçilmiş publisistik məqalələrinin toplusudur.

**2009**

**Ülvi, Almaz. (Binnətova Almaz Qasım qızı)** Müdriklik işığında [Mətn]: Azərbaycan 2008-2009-cu illərdə YUNESKO səhifələrində / A.Ülvi; elmi red. A. Əlizadə; məsləhətçi. A. Aslanov; red. N. Süleymanov; AMEA Geologiya İn-tu.- Bakı: Nurlan, 2009.- 135, [1] s.

2008-2009-cu illərdə "Leyli-Məcnun" operasının ilk tamaşasının, xalq rəssamı Səttar Bəhlulzadənin, yazıçı Mir Cəlal Paşayevin və akademik Musa Əliyevin 100 illik yubileyləri Azərbaycanda dövlət səviyyəsində keçirilmişdir. Kitabda müəllifin bu yubilyarların hər birinə aid əhatəli, elmi-publisistik səpgidə məqalələri verilmişdir.

**2007**

**Xəyal, Sona. (Hadiyeva Sona Həmid qızı)** Maştağa ədəbi mühiti və Mir Cəlal [Mətn] / X. Sona; məsləhətçi: V. Məmmədəliyev, N. Şəfaioğlu; AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu.- Bakı: Nurlan, 2007.- 79 s.

Kitabda Maştağa ədəbi mühiti və mühitdə yetişən şairlər haqqında qısa məlumat, əsərlərindən nümunələr, bu mühitin seçilən şairlərindən ***Mir Cəlalın*** həyatından epizodlar və yaradıcılığı haqqında məlumat verilir.

**2002**

**Salmanova, Zahirə.** Bədii ədəbiyyatda sənətkarlıq məsələləri. [Mətn] / Z. Salmanova; red. B. Babayev; Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Dövlət Universiteti.- Bakı: Nurlan, 2002.- 79, [1] s.

Kitabda qədim dövrlərdən XX əsrin sonuna qədər yazıb-yaradan N. Gəncəvi, N. Nərimanov, ***Mir Cəlal***, S. Vurğun, F. Sadıq və s. sənətkarların nümunəvi əsərləri təhlil olunur.

**1998**

**Orucov, Teyyub.** Hadisələrin bədii axarında [Mətn] : [Məqalələr] / T. Orucov, M. Orucov ; red. A. Axundov ; naşir. Q. İsabəyli.- Bakı: Şirvannəşr, 1998.- 91 s.

Kitaba daxil olan müxtəlif səpkili ədəbi-tənqidi məqalələrdə bədii xarakter müxtəlif yönümdən araşdırılır. Məqalələrdə 50-80-cı illərin müəyyən qism hekayələri, ***Mir Cəlalın***, M.İbrahimovun, İ. Əfəndiyevin və s. kiçik janrın tələblərinə cavab verən əsərləri təhlil edilir.

**1996**

**Abdullayeva, Aytək Gülhüseyn qızı.** Müşfiq və folklor [Mətn]: Monoqrafiya, məqalələr / A. Abdullayeva; tərt. ed. və çapa hazırlayan: G. Hüseynoğlu; ön sözün müəl. C. Abdullayev; red. A. Nəbiyev.- Bakı: Gənclik, 1996.- 272 s.

Kitabda M. Müşfiqin folklorla əlaqəsindən, onun zəngin xəzinəsindən hansı məqamlarda, necə bəhrələnməsindən ilk dəfədir ki, bu genişliyilə, tutarlı dəlillərlə danışılır. Kitabda Ü. Hacıbəyovun, M. H. Şəhriyarın, ***Mir Cəlalın***, İ. Şıxlının və b. qələm sahiblərinin söz dünyasından, eləcə də folklorla bağlılığından səriştə ilə, zövqlə bəhs edilən məqalələr verilmişdir.

**1995**

**Mir Cəlal: 1908-1978** // Azərbaycan yazıçıları: ensiklopedik məlumat kitabı.- Bakı, 1995.- S. 333-334.

**1982**

**Mir Cəlal** / Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- C.6.- Bakı, 1982. – S.586.